İstanbul

# Türk dünyası kino rəhbərlərinin ikinci görüşü




**Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti, digər türk dövlətləri və icmalarını təmsil edən kino qurumlarının rəhbərləri, rejissorlar, prodüserlər və mədəniyyət sahəsinin nümayəndələri, İstanbulda Türk Dünyası Kino Rəhbərlərinin ikinci Zirvə Görüşündə bir araya gəliblər.**

Görüş Türkiyə mədəniyyət və turizm nazirliyinin təşəbbüsü, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un təşkilatçılığı ilə keçirilib. Zirvə görüşü Türk dövlətlərinin kino sahəsində əməkdaşlığını dərinləşdirmək, ortaq istehsalları təşviq etmək və mədəni inteqrasiyanı sürətləndirmək məqsədi daşıyır. Tədbir TÜRKSOY Daimi Şurasının 40-cı toplantısında qəbul edilmiş qərarlar əsasında baş tutub. Görüşdə vurğulandı ki, kino xalqın tarixini, milli dəyərlərini və dünyagörüşünü gələcək nəsillərə çatdıran güclü bir vasitədir. Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin ev sahibliyi ilə keçirilən görüşdə ortaq kino fondu yaradılması, ortaq film festivalları, gənc rejissorlar üçün təlim proqramları və Türk Dünyası Film Arxivinin qurulması kimi strateji təşəbbüslər müzakirə olunub.




Tədbirin açılışında çıxış edən TÜRKSOY-un Baş katibi Sultan Raev, ortaq yaddaş və mədəniyyətin formalaşdırılması üçün birgə fəaliyyətin önəmini vurğulayıb.

Azərbaycan Respublikası Kino Agentliyinin baş direktorunun müavini Qurban Primov çıxışında ölkəmizin kino sahəsində həyata keçirdiyi siyasət, beynəlxalq əməkdaşlıq istiqamətləri və gələcək planlar barədə ətraflı məlumat verib. O, həmçinin "Baku Cinema Breeze Festivalı" haqqında iştirakçıları məlumatlandıraraq onları festivalda iştiraka dəvət edib. Eyni zamanda distribusiya, dublyaj və animasiya sahələrində əməkdaşlıq təklifləri də irəli sürülüb.

Zirvə görüşündə ortaq film istehsalı, kino festivallarında əməkdaşlıq və birgə kino fondu yaradılması kimi məsələlər də müzakirə olunub. Tədbirin yekununda iştirakçı ölkələrin nümayəndələri tərəfindən ortaq protokol imzalanıb. Protokola görə, kino məlumat bazalarının birləşdirilməsi, vahid film yayımı siyasətinin hazırlanması, türk dövlətlərinin filmlərinin qarşılıqlı olaraq bir-birinin TV-lərində, rəqəmsal platformalarında yayımlanması kimi razılaşmalar əldə olunub. Bu təşəbbüs, türk xalqlarının ortaq tarixi, dili və mədəni dəyərləri ətrafında "mədəni birliyi gücləndirmək" məqsədi daşıyır.

Qeyd edək ki, görüş Türkiyənin ən böyük ssenari inkişafı və ortaq istehsal platforması olan "TRT 12 Punto" tədbirləri ilə paralel təşkil edilib. "12 Punto 2025" çərçivəsində keçirilən "Türkiyə ilə Türk dünyası arasında ortaq istehsalda yeni körpülər" adlı panel müzakirəsində Türkiyə və digər türk dövlətlərinin kino sahəsindəki rəsmi qurumlarının rəhbərləri iştirak ediblər. Paneldə ortaq istehsal imkanları, əməkdaşlıq platformaları və gələcək perspektivlər müzakirə olunub.

Müzakirələr zamanı ölkələrarası birgə layihələrin həyata keçirilməsi, kino üzrə təlim və təcrübə proqramlarının təşkili, qarşılıqlı film mübadiləsi və festival əməkdaşlığı mövzularında fikir mübadiləsi aparılıb. İştirakçılar öz təcrübələrini bölüşərək qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı təkliflər səsləndiriblər.

Səfər çərçivəsində nümayəndə heyətləri TRT-nin pavilyonunu da ziyarət edərək televiziya və kino sahəsində tətbiq olunan müasir texnoloji imkanlar, çəkiliş və postprodakşn prosesləri ilə tanış olublar. Azərbaycan nümayəndə heyəti, həmçinin Türkiyənin bir sıra nüfuzlu özəl film şirkətləri ilə görüşlər keçirib. Görüşlərdə studiyaların tətbiq etdiyi texniki infrastruktur, yüksəkkeyfiyyətli istehsalat imkanları və əməkdaşlıq perspektivləri ətrafında müzakirələr aparılıb.

Növbəti görüşün 2025-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" Aktau şəhərində keçirilməsi planlaşdırılır.

Beləliklə, Türk Dünyası Kino Rəhbərlərinin ikinci görüşü yalnız kino sahəsində deyil, ümumilikdə türk gənclərinin ortaq kimlik hissinin artırılması və beynəlxalq aləmdə türk mədəniyyətinin daha geniş tanıdılması baxımından da mühüm əhəmiyyət daşıyır.

İstanbulun ev sahibliyi etdiyi bu tədbir göstərir ki, türk dövlətləri mədəni diplomatiyanı strateji silaha çevirərək, qlobal mədəni platformalarda daha güclü mövqe tutmağa doğru irəliləyirlər. Əldə olunan razılaşmalar və təşəbbüslər, türk dünyasının mədəni birliyinin gücləndirilməsi, ortaq kimliyin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından da önəmlidir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika.- 2025.- 24 iyul (№151).- S.11.